

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI

Mart 2017


Baş redaktor : Dr. Vüsal Musayev

*İqtisad Elmləri Doktoru*

London Universiteti

www.vusalmusayev.com

info@iqtisadiislahat.org



# "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişikliklər

Azərbaycan Respublikası Prezidenti 17 mart, 2017–ci il tarixində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə fərman imzalamışdır.

İqtisadi inkişaf strategiyasının ən vacib tələblərindən biri sahibkarlığın inkişafı, əlverişli biznes mühitin yaradılması və bu məqsədlə aparılan islahatların əhatə dairəsinin genişləndirilməsidir. Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Belə ki, bu sahədə aparılan islahatların əsas məqsədi kimi atılan addımlar sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsi və əlverişliliyinin artırılmasının təmin edilməsinə yönəldilmişdir.

Bu strateji xəttin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidenti 17 mart, 2017–ci il tarixində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə fərman imzalamışdır.

Bunu da qeyd etmək vacibdir ki, sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir. Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri idarələrarası dövlət informasiya ehtiyatıdır və bu sahədə yoxlamaların aparılmasının mütəmadiliyi, ardıcıllığı, təkrarlanması və nəticələri haqqında tam və operativ məlumatın əldə olunmasını mümkün edir.

Fərman xarici ticarətdə iştirak edən dövlət orqanları üzərinə konkret vəzifələr qoymaqla, sahibkarlığın inkişafı sahəsində şəffaflığın və hesabatlılığın artırılmasına yönəlmiş mühüm addım kimi səciyyələndirilir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Fərman 9 bənddə dəyişiklik, bir neçə bəndlərin və yarımbəndlərin əlavə edilməsini, və eyni zamanda bir sıra texniki dəyişiklikləri özündə birləşdirir.

Sözügedən Fərmanda qeyd edilən dəyişikliklərə əsasən, Reyestrin informasiya resursu vahid məkanda saxlanılmaqla öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən aparılır.Həmçinin, bunu da qeyd etmək lazımdır ki, Ədliyy Nazirliyi Reyestrin məlumat bazasının formalaşdırılmasını, saxlanılmasını, idarə olunmasını, tamlığını və mühafizəsini təmin edir. Əsasnaməyə uyğun olaraq sahibkarlıq sahəsində aparılan hər bir yoxlama Reyestrdə qeydiyyata alındıqdan sonra həyata keçirilə bilər. Aşağıda qeyd edilmiş yoxlamalar Reyestrdə qeydiyyata alınmır:

1. sərhəd-buraxılış məntəqələrində keçirilən yoxlamalar;

2. dəniz və hava limanlarında nəzarətdən irəli gələn yoxlamalar;

3. dövlət mülkiyyətində olan müəssisələrin idarəetməyə verilməsi barədə müqavilələrdən irəli gələn yoxlamalar.

Fərmanda qeyd edilir ki, Reyestrə yoxlayıcı orqan, sahibkarlıq fəaliyyəti subyektləri, sahibkarla bağlı məlumatlar, habelə yoxlamalar və məhdudlaşdırıcı tədbirlər barədə məlumatlar daxil edilir.

Reyestrə yoxlayıcı orqanlarla bağlı aşağıda qeyd edilən məlumatlar daxil edilir:

1. yoxlayıcı orqanların (yoxlama aparmaq səlahiyyəti olan struktur qurumları ilə birlikdə) siyahısı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya əsasən);

2. yoxlayıcı orqanların nəzarət sahələri (Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya əsasən);

3. yoxlayıcı orqanların yoxlama zamanı araşdırdıqları sualların siyahısı (yoxlayıcı orqanın hazırladığı, təsdiq etdiyi və avtomatlaşdırılmış rejimdə təqdim etdiyi yoxlama suallarının siyahısına əsasən).

Sözügedən Fərmanda qeyd edilən dəyişikliklərə əsasən, Reyestrə sahibkarlarla bağlı vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN); hüquqi şəxsin, onun filial və nümayəndəliyinin, xarici dövlətlərin hüquqi şəxslərinin filial və nümayəndəliklərinin adları, təşkilati-hüquqi forması, əsas fəaliyyət növü,

rəhbərin fərdi identifikasiya nömrəsi (FİN), hüquqi ünvanı, elektron ünvanı (təsərrüfat obyektləri olduqda onların fəaliyyət növü, ünvanı və vergi orqanları tərəfindən verilən kodu); hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin FİN-i, soyadı, adı, atasının adı, vergi uçot məlumatlarına əsasən ünvanı, əsas fəaliyyət növü, elektron ünvanı; sahibkarın qeydiyyata alınması tarixi, vergi ödəyicisi kimi qeydiyyata alınması, yenidən qeydiyyata alınması və qeydiyyatdan çıxarılması tarixləri, hansı vergilərin ödəyicisi olması; sahibkarın fəaliyyət göstərməsi, fəaliyyətini dayandırması, fəaliyyətinə xitam verilməsi barədə məlumat; sahibkarın kiçik, orta və iri sahibkar meyarları üzrə aid edildiyi kateqoriya kimi məlumatlar daxil edilir.

Reyestr elektron formada, vahid forma, metod və prinsiplər əsasında aparılır. Belə ki, hər növbəti il üzrə yoxlamaların keçirilməsi barədə məlumatları özündə əks etdirən informasiya sistemi vasitəsilə elektron formatda tərtib olunmuş illik yoxlama planı yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək 1 noyabr tarixindən gec olmayaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilir. Bununla yanaşı, illik yoxlama planında nəzərdə tutulmuş yoxlamaların qeydiyyata alınması üçün hər bir yoxlama barədə məlumatlar yoxlamadan ən azı 5 iş günü (vergi yoxlamasından ən azı 15 gün) əvvəl yoxlayıcı orqanın rəhbəri və ya onun vəzifəsini icra edən şəxs tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilir.

Reyestrin formalaşdırılması və aparılması dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.



/iqtisadiislahat


Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

(+994)12 5213318

http://iqtisadiislahat.org
http://ereforms.org
http://ecoreform.az

info@ereforms.org